Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

1/2 * 2009

yeni

Mədəni-maarif jurnalı



"2009. Bakı İslam mədəniyyətinin paytaxtıdır" mədəniyyət ili start götürdü!



İnci

Möminə Xatun məqbərəsi

XII əsrdə Naxçıvanda İraq-Səlcuq türkləri İslam dinini yayaraq, memarlıq nümunələri olan türbə və məqbərələr tikdirmişlər. Həmin abidələrdən biri Naxçıvan şəhərindəki memar Əcəmi Əbubəkr oğlunun inşa etdiyi möhtəşəm Möminə Xatun məqbərəsidir. Məqbərə 1186-cı ildə Atabəy Eldəniz Şəmsəddin oğlu Məhəmməd Cahan Pəhləvanın anası Möminə Xatunun əziz xatirəsinə gəlini Zahidə Xatun (bəzi mənbələrdə isə oğlu Cahan Pəhləvan) tərəfindən tikilmişdir. "Mömin olmaqla bərabər, yaxşı işlər görən kişilər və ya qadınlar Cənnətə daxil olacaqlar. Onlara xurma çərdəyi qədər haqsızlıq edilməz!" (Quran, "Nisa" (4) s.a.124.)

Naxçıvan şəhərinin cənub-qərb hissəsində "xandiki" adlanan uca sahədə tikilmiş abidə baxanları heyran edir. Hündürlüyü 26 m-ə çatan tikili on üzlü olmaqla konusvari formadadır. Yeraltı və yerüstü hissədən olan binanın divarları xaricdən on guşəli, daxildən isə dairəvidir. Məqbərənin yerüstü hissəsi möhkəm kürsülükdə yerləşdirilərək, üz tərəfdən tuf daşlarla üzlənmişdir.

On üzlü olan xarici divarlarının doqquzu bir-birindən fərqli olaraq həndəsi mürəkkəb naxışlarla (mavigöy rəngli kaşı kərpiclərlə) bəzədilmişdir. Binanın giriş qapısı onuncu üzün divarındadır. Məqbərənin küncləri fiqurlu hörgülərlə bəzədilərək Qurandan sözlər yazılmışdır.

Əllinci illərdə binada bərpa-təmir işləri aparılarkən naxışlı yazılara əhəmiyyət verilmədiyindən sözlərin oxunuşu çətinləşmişdir.

Məqbərənin daxili divarları sadə olaraq, orada dekorativ dairəvi medalyon işarəsi vardır. Həmin işarələr indiyənədək mütəxəssislər tərəfindən öyrənilməmişdir. Məqbərənin yeraltı hissəsi sərdabə tiplidir. Bura onguşəli mərkəzdən başlayaraq aşağıya tərəf daralan sütundan ibarətdir. Həmin sütun binanın yerüstü sahəsinin döşəməsini və ağırlıq daşıyıcısı taraz rolunu oynayır.

Möminə Xatun məqbərəsi dövrümüzədək qalsa da istər mərhumə və istərsə də böyük Əcəminin məzarları haqqında dəqiq tarixi məlumat əldə olunmamışdır. Yaşlı nəslin adamları söyləyirlər ki, məqbərənin birinci yeraltı mərtəbəsində yerdə məzar və yazılı daş kitabələr olmuşdur. Lakin bərpaçı inşaatçılar erməni millətindən olduğundan oradakı məzar yeri sökülməklə yazılı kitabələr aparılmışdır.

Həmin illərdə qəbirüstü yazılı daş kitabələrin üzünün köçürülməsi işləri Naxçıvan mətbəəsinin foto-sinkoqrafı Aşot Markaryana həvalə olunmuşdur...

Bütün bunlara baxmayaraq Möminə Xatun məqbərəsi xalqımızın ziyarət yerlərindən olmaqla dünya mədəniyyətinin incilərindən sayılır.

Haliyyədə məqbərə şəhərdəki Açıq səma altındakı muzeyin ərazisindədir.

● **F.BAĞIROV**

Bir çox mədəniyyət və incəsənət xadiminin yubileyləri, o cümlədən - Xalq Artistləri Tofiq Kazımovun 85, Arif Babayevin 70, Həsən Turabovun 70, Nəsibə Zeynvalovanın 90, Rafiq Əzimovun 70, SSRİ Xalq Artisti Mehdi Məmmədovun 90, Xalq Rəssamı Asəf Cəfərovun 80 illik yubiley tədbirləri keçirilmişdir.